

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 175 (24.312)

*23 sentyabr 2023-cü il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktorunu qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Roland Praysı qəbul edib.

Dövlətimizin başçısı Dünya Bankının Azərbaycan iqtisadiyyatının modernləşdirilməsinə və şaxələndirilməsinə verdiyi dəstəyə görə minnətdarlığını bildirdi. Ötən illər ərzində əməkdaşlığın yüksək səviyyədə olduğunu deyən Prezident İlham Əliyev gələcək konkret istiqamətlərin və layihələrin müəyyənləşdirilməsinin önəmini vurğuladı. Dövlətimizin başçısı ölkəmizin uzun illər xarici borcun azaldılması istiqamətində səylər göstərdiyini və artıq bu məqsədə nail olunduğunu qeyd etdi.

Azərbaycanla artıq 30 ildir, əməkdaşlığın həyata keçirilməsindən məmnunluğunu bildirən Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru dedi ki, bu gün Azərbaycan əhəmiyyətli inkişafa nail olub və yüksək nəticələr əldə edib. Qonaq bu inkişaf yolunda ölkəmizlə tərəfdaş olmaqdan məmnunluğunu ifadə etdi.

Görüşdə Dünya Bankının Azərbaycanda mövcud fəaliyyət istiqamətləri, ölkəmizin qarşısında duran və “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərə” uyğun olan yeni istiqamətlər və layihələr barədə müzakirələr aparıldı.

Qeyd edildi ki, Azərbaycan ilə Dünya Bankı arasında əsas əməkdaşlıq sahələri bərpa olunan enerji, yaşıl iqtisadiyyat və şəhərlər, nəqliyyat əlaqələndirmə, kənd təsərrüfatı və irriqasiya sahələrində həyata keçirilən layihələrlə bağlıdır.

**AZƏRTAC**

## Naxçıvan Dövlət Universitetində Kardiologiya konqresi keçirilib

*Naxçıvan Dövlət Universitetinin Beynəlxalq məktəbində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Naxçıvan Muxtar Respublikası Kardiologiya konqresi keçirilib.*





Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Naxçıvan Dövlət Universiteti, Azərbaycan Ürək və Damar Cərrahiyyəsi Cəmiyyəti və Azərbaycan Kardiologiya Cəmiyyətinin birgə təşkilatçılığı ilə keçirilən konqresdən əvvəl qonaqlar Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində əzəmətlə ucalan heykəli önünə gül dəstələri qoyub, Ulu Öndərə sonsuz ehtiramlarını bildiriblər.

Heydər Əliyev Muzeyinin zəngin ekspozisiyası ilə tanışlıq zamanı qonaqlara görkəmli dövlət xadiminin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu özündə əks etdirən eksponatlar barədə məlumat verilib.

Konqres Ümummilli Lider Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda canını qurban verən şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevə həsr olunan videoçarx nümayiş olunub.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev qonaqları salamlayıb və konqresin işinə uğurlar arzulayıb. Rektor Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda ali təhsil ocağının qarşıdakı mərhələlər üzrə perspektivlərini diqqətə çatdırıb. Elbrus İsayev yeni yaradılacaq tibb kampusunun əsasının qoyulmasının gələcəkdə muxtar respublika səhiyyəsinə töhfə verməklə bərabər beynəlxalq aləmdə qazanılan uğurların davamı olacağına əminliyini ifadə edib.

Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini, nazir səlahiyyətlərini müvəqqəti icra edən Samiq Sadıxov Ulu Öndərin əsasını qoyduğu səhiyyə siyasətinin bu gün də yüksələn xətlə inkişafından söhbət açıb. Bildirilib ki, Naxçıvan Muxtar Respublikasının səhiyyə sistemində son aylarda həyata keçirilən köklü islahatlar muxtar respublika tibbi xidmətinin müasir və üstün yanaşma ilə qurulmasına, tibbin bütün istiqamətlərində keyfiyyətin artırılmasına yönəlib.

Azərbaycan Kardiologiya Cəmiyyətinin sədri Üzeyir Rəhimov qeyd edib ki, bu gün digər sahələrdə olduğu kimi, səhiyyə sahəsində də Ulu Öndərin sosialyönümlü siyasət strategiyası Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının rəhbərliyi altında səhiyyə sistemində aparılan əsaslı islahatlar sayəsində səhiyyə idarəçiliyi və maliyyələşməsinin yeni müasir konsepsiyalara uyğun formalaşdırılması, ən yaxşı beynəlxalq təcrübədən istifadə bu islahatların təməlini təşkil edir. Üzeyir Rəhimov vurğulayıb ki, 12 ildir, fəaliyyət göstərən cəmiyyətin əsas məqsədi kardioloqların elmi səviyyəsini yüksəltməkdir.

Azərbaycan Ürək-Damar Cərrahiyyəsi Cəmiyyətinin sədri Kamran Musayev, YAP İdarə Heyətinin üzvü Tofiq Cahangirov, Azərbaycan Kardiologiya Cəmiyyətinin İdarə Heyətinin üzvü, kurs direktoru Tofiq Sadıqov, “Naxçıvan Muxtar Respublikası Həkimlərinin Assosiasiyası” İctimai Birliyinin sədri İsa Abdullayevin çıxışları dinlənilib.

Qeyd edək ki, konqresin moderatoru universitet xəstəxanasının baş həkimi Elmar Rzayevdir.

Məlumat üçün onu da bildirək konqres iki gün davam edəcək. Konqresdə ixtisaslı peşəkar həkimlərin çıxışları ilə yanaşı, Klinik hallar ilə EKQ, Kardiak anatomiya, Ürək ağciyər canlandırma (CPR) kursları da təşkil ediləcək.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

*Tarixi Azərbaycan torpaqları*

## Qərbi Zəngəzur ərazisi Ermənistan SSR-in tərkibinə necə verildi

*Ermənistan adlandırılan dövlət tarixi Azərbaycan ərazilərində yaradılmışdır. Tarixin müxtəlif dövrlərində, xüsusilə XIX və XX əsrlərdə ermənilər bu ərazilərə köçürülmüşlər. Onlar bu ərazilərdə möhkəmləndikcə yerli azərbaycanlıları öz tarixi torpaqlarından çıxarmağa çalışmışlar. Ermənistan ərazisində qədim türk mənşəli tayfaların yaşaması barədə tarixi məlumatlar azərbaycanlıların orada miladdan əvvəl I minillikdə və erkən orta əsrlərdə yaşadığını göstərir. Ermənistan ərazisində olan coğrafi adların böyük əksəriyyəti azərbaycanlılara məxsusdur. Tarixi İrəvan əyalətinin, İrəvan xanlığının və İrəvan quberniyasının yaşayış məntəqə adlarının, demək olar, hamısının türkmənşəli olması bununla bağlıdır.*



XIX əsrin əvvəllərində Rusiyanın Qacarlar İranı və Osmanlı dövlətləri ilə apardığı müharibədən sonra ermənilər kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülmüşdür. Tanınmış rus tədqiqatçısı N.Şavrov ermənilərin Cənubi Qafqaza köçürülməsi prosesini və köçürülüb gətirilmiş ermənilərin sayını araşdırdıqdan sonra 1911-ci ildə yazırdı: “Hazırda Cənubi Qafqazda yaşayan 1 milyon 300 min ermənininin 1 milyondan çoxu bu diyarın yerli əhalisi deyil. Onları bura biz köçürüb gətirmişik”. Şavrova görə, ermənilərə məskən salmaq üçün hökumət tərəfindən 200 min desyatin xəzinə torpağı ayrılmış və müsəlmanlardan 2 milyon manatlıqdan çox xüsusi sahibkar torpağı alınmışdır.

Köçürülən ermənilər, əsasən, Qarabağ, Naxçıvan, İrəvan, Zəngəzur və başqa ərazilərdə yerləşdirilirdi. Həmin dövrdə ermənilərin dövlətləri olmamışdır. Onların əsas məqsədi bu ərazilərdə erməni millətindən olan əhalinin sayını artırmaq idi. Bu işdə onlara böyük dövlətlər, xüsusilə çar Rusiyası, daha sonra isə Sovet Rusiyası kömək edirdi.

1918-ci ildə Cənubi Qafqazda müstəqil dövlətlər yarandı. Belə dövlətlərdən biri də İrəvan xanlığı ərazisində yaradılan Ararat Respublikası idi. Bu respublika yaradılarkən onun sahəsi 9 min kvadratkilometr idi. Bununla kifayətlənməyən erməni daşnakları qonşu ərazilərə – Azərbaycan torpaqlarına göz dikir və bunları da Ermənistan dövlətinin tərkibində görmək istəyirdilər.

Belə ərazilərdən biri də Zəngəzur idi. Türkmənçay müqaviləsindən sonra Zəngəzura çar hökumətinin himayəsi altında Türkiyə və İrandan kütləvi surətdə ermənilərin köçürülməsinə başlanılmış, beləliklə, qədim Azərbaycan torpağı olan Zəngəzurda süni surətdə erməni əhalisinin sayca çoxaldılması siyasəti yeridilmişdir.

Zəngəzur qədim və tarixi Azərbaycan ərazisidir. Ərazinin Zəngəzur adlanması da təsadüfi deyildir. “Zəngəzur” toponimi bu ərazilərdə yaşayan, öz igidliyi və cəngavərliyi ilə seçilən “zəngi” tayfalarının adı ilə bağlıdır. Zəngi tayfaları tarixdə görkəmli qoşun başçıları və dövlət xadimləri ilə məşhur olan bir türk boyudur. Bu boyla bağlı Azərbaycan ərazisində Zəngilan, Zəngəran, Zəngidərə, Zəngi çayı, Zəngilər, Zəngibasar və başqa onlarla coğrafi adlar mövcuddur. Ərazinin aborigen əhalisi də Azərbaycan türkləri olmuşdur. Ümumiyyətlə, Zəngəzur ərazisində minlərlə türk mənşəli coğrafi adlar məlumdur.

Erməni daşnakları 1917-ci ilin martından Zəngəzur türk-müsəlman əhalisinə qarşı soyqırımına başlamış, yüzlərlə kənd yerləyeksan olunmuş, on minlərlə insan məhv edilmiş, doğma yurdlarından didərgin salınmışdır.

1917-ci ilə aid statistik məlumatlara görə, Zəngəzur qəzasında azərbaycanlılar 55 faiz, ermənilər isə 44,3 faiz təşkil edirdi. 1918-ci ildə Zəngəzur qəzasında mövcud olan 222 yaşayış məntəqəsindən 116-sı azərbaycanlılara məxsus idi. Daşnaklar hakimiyyətə gəldikdən sonra azərbaycanlılara qarşı soyqırımını dövlət siyasəti səviyyəsində həyata keçirməyə başladı. Andronikin, Njdenin, Dronun quldur dəstələrinin Zəngəzura basqınları 1918-ci ildə 115 Azərbaycan kəndinin viran qoyulmasına və yandırılmasına, yüz minlərlə insanın qətlə yetirilməsinə, 40 min nəfərdən artıq dinc sakinin öz doğma yurdunu tərk etməsinə səbəb oldu.

Ermənistan hökuməti tərəfindən ruhlandırılan, maliyyələşdirilən və təchiz olunan Andronik və onun quldur dəstəsi Zəngəzurda yeni-yeni özbaşınalıq və vəhşiliklər törədirdi.

Andronikin Zəngəzurdakı “etnik təmizləmə” fəaliyyəti 1918-ci il noyabrın ikinci yarısında özünün yeni, azərbaycanlı əhali üçün daha faciəli mərhələsinə başladı. Onun quldur dəstələrinin 1918-ci il noyabrın 22-də Zəngəzur qəzasının mərkəzi olan Gorusa soxulması, qəzanın kəndlərini viran etməsi, əhaliyə divan tutması nəticəsində qısa müddətdə burada 30-dan çox azərbaycanlı kəndi dağıldı.

*Ardı 2-ci səhifədə*

Erməni silahlı dəstələrinin azğınlığı getdikcə daha dəhşətli xarakter alırdı. Bu özbaşınalıqlara qarşı qətiyyətli mübarizə aparmaq üçün Xalq Cümhuriyyətinin Nazirlər Şurası 15 yanvar 1919-cu il tarixli iclasında Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzaları üzrə müvəqqəti general-qubernatorluq yaradılmasını qərara aldı. Müvəqqəti general-qubernatorluğa fövqəladə səlahiyyətlər verilməsi nəzərdə tutulmuşdu.

Nazirlər Şurasının iclasında Xosrov bəy Sultanov Qarabağın general-qubernatoru vəzifəsinə təsdiq edildi.

Erməni silahlılarına cavab vermək üçün Zəngəzurun bir sıra müsəlman kəndlərində özünümüdafiə dəstələri təşkil edildi. Həmin dəstələr arasında X.Sultanovun qardaşı Sultan bəyin dəstəsi daha yüksək döyüş qabiliyyətinə malik idi. Avqust ayındakı döyüşlərdə ermənilər xeyli itki vermişdilər.

Azərbaycan hökuməti Zəngəzurda yaranmış qarışıqlığı, ermənilərin pozuculuq hərəkətlərini aradan qaldırmaq üçün müəyyən hərbi-siyasi xarakterli addımlar atmalı, bölgəyə müəyyən sayda hərbi qüvvə göndərməli oldu.

Bu zaman Azərbaycan hökuməti Qərb dövlətlərinin təklifi ilə mübahisəli məsələlərə dair konfransda iştirak etməyə razılıq verdi. Bu məsələ Dövlət Müdafiə Komitəsində də müzakirə olundu. Qəbul edilmiş qərarda silahlı qarşıdurmanın aradan qaldırılması bildirildi.

1919-cu il noyabrın 23-də Azərbaycan və Ermənistan hökumətlərinin sədrləri görüşdülər. ABŞ nümayəndələrinin vasitəçiliyi ilə təşkil edilmiş bu görüş başlıca olaraq ərazi məsələlərinin müzakirəsinə həsr edilmişdi. Azərbaycanla-Ermənistan arasında saziş imzalanır. Sazişi Azərbaycan tərəfdən N.Yusifbəyli, Ermənistan tərəfdən A.Xatisyan, ABŞ nümayəndəsi, müttəfiqlərin Ali komissarının müavini C.Rey və Gürcüstanın Xarici İşlər naziri Gegeçkori imzalayırlar. Saziş 5 bənddən ibarət idi:

1. Ermənistan və Azərbaycan hökumətləri baş verən toqquşmaları dayandırmağı və yenidən silah gücünə əl atmamağı öhdələrinə götürürlər.

2. Ermənistan və Azərbaycan hökumətləri Zəngəzura gələn yolların düzəldilməsi və açılması, onlarla dinc hərəkətlər üçün təsirli tədbirlər görülməsini razılaşdırırlar.

3. Ermənistan və Azərbaycan hökumətləri sərhəd haqqında məsələlər də daxil olmaqla, bütün mübahisəli məsələləri dinc sazişlər yolu ilə həll etməyi öhdələrinə götürürlər. Dinc saziş qeyri-mümkün olduğu halda, hər iki hökumət üçüncü tərəf-münsiflər məhkəməsi sifəti ilə bitərəf şəxs seçməyi və onun qəzalarını məcburi qəbul etməyi razılaşdırırlar: hazırkı dövrdə belə bir bitərəf şəxs kimi polkovnik Rey tanınır.

4. Ermənistan-Azərbaycan konfransını 1919-cu il noyabrın 26-da Bakıda açmaq qərara alınır.

5. Bu saziş imzalandığı gündən həqiqi sayılır və respublikaların parlamentləri tərəfindən təsdiq olunduğu vaxtdan isə qüvvəyə minir.

Bu saziş müvəqqəti xarakter daşıyırdı. Çünki sazişə görə dövlətlərarası mübahisəli məsələlərin bütün kompleksini yalnız qarşıdakı Ermənistan-Azərbaycan konfransı həll edə bilərdi. Sazişin nəticələrinə gəldikdə isə onlar Azərbaycan tərəfi üçün faydalı olmadı, əksinə, onun siyasi və hərbi maraqlarına xələl gətirdi. Ermənilərin səmimi olmalarına inanan müttəfiqlərin müraciətlərini əsas tutan Azərbaycan hökuməti razılaşdırılmış məsələlərin həllini gözləmədən öz qoşun hissələrini Zəngəzurdan çıxartdı. Saziş ərəfəsində və onun bağlandığı günlərdə belə Zəngəzurda hərbi əməliyyatları davam etdirən Ermənistan hökuməti bu şəraitdən faydalanaraq dərhal bölgəyə əlavə nizami silahlı qüvvələr yeritdi. Nəticədə, Zəngəzur mahalının azərbaycanlı əhalisinə divan tutuldu. Zəngəzurun Oxçu, Şabadin, Pirdavdan, Atqız, Oxçudərə və başqa kəndlərinə amansız cəza verildi, talanlar edildi.

Vəziyyətin gərginləşməsi Azərbaycan Xalq Cümhuriyyətini və mahalın əhalisini ciddi əməli addım atmağa məcbur etdi. Qəzanın əhalisindən ibarət partizan dəstələri yaradılaraq cəbhə xəttində yerləşdirildi. Gəncə batalyonu Zəngəzura göndərildi. Bu tədbirlər sayəsində qısa müddətdə sakitlik yaransa da, bu, çox çəkmədi.

1920-ci il aprelin əvvəllərində Tiflisdə keçirilən konfransda Azərbaycanın konfederasiya yaratmaq və onun sərhədlərini birgə müdafiə etmək haqqında təklifinə cavab olaraq Ermənistan nümayəndəsi A.Aqoranyan açıq şəkildə bildirdi ki, Ermənistan İrəvan qəzasından ibarət olan müstəqil Ermənistanın indiki sərhədləri ilə razılaşa bilməz.

1920-ci il aprelin 28-də Bakıda dövlət çevrilişi nəticəsində bolşeviklər hakimiyyətə gəldilər. Rusiyanın ordu hissələri Bakını tutduqdan sonra Azərbaycanın Naxçıvan, Zəngəzur və başqa bölgələrini də yenidən işğal etmək üçün xüsusi hərbi əməliyyatlar hazırladılar. Bu dövrdə Ermənistanın həmin bölgələrə dair ərazi iddiaları davam etdiyindən onunla Azərbaycan arasında hərbi-siyasi qarşıdurma nəinki səngimədi, əksinə, daha da qüvvətləndi.

1920-ci il aprelin 30-da Azərbaycan SSR XXİK-in müavini M.D.Hüseynov Ermənistan hökumətinə nota göndərdi. Bu notada aşağıdakı tələblər irəli sürülmüşdü: Üç gün müddətində Qarabağı və Zəngəzuru öz qoşunlarından təmizləmək; öz sərhədlərinə çəkilmək və millətlərarası qırğına və ədavətə son qoymaq.

Ermənistan İnqilab Komitəsi bu notanı aldıqdan sonra Rusiyanı məlumatlandırır, Qarabağda və Zəngəzurda erməni qoşunu olmadığını bildirir. Ermənistan həm də bu məsələdə sovet Rusiyasının vasitəçilik etməsini istəyirdi. Ermənistan Qarabağı və Zəngəzuru özlərininki saydığından yalan məlumatlar verirdi. Onlar həm də Qarabağ və Zəngəzur mahallarının Türkiyə ilə birləşmə ehtimallarını irəli sürməklə Rusiyaya müəyyən eyhamlar çatdırırdı.

Sovet Rusiyası Ermənistanı da özünün asılılığına keçirmək üçün sovet Azərbaycanının torpaqları hesabına onu sovetləşdirmək istəyirdi. Bunun üçün Azərbaycanın bir sıra ərazilərini mübahisəli sayırdı. Çiçerin Orconikidzeyə ünvanlandığı teleqramda bildirirdi ki, "Bakıdakı böyük nüfuzundan istifadə edib Azərbaycan hökumətinin Şərur-Dərələyəz qəzasının deyil, Qarabağ və Zəngəzurun mübahisəli ərazi kimi etirafına nail olmağı xahiş edirik". İyunun 19-u teleqramında bildirirdi ki, Qarabağ, Zəngəzur, Naxçıvan, Culfa nə Ermənistana, nə Azərbaycana birləşdirilməli, yerli sovetlərin razılığı ilə Rusiya qoşunlarının işğalı altında olmalıdır.

N.Nərimanovun, Gürcüstan və Ermənistan rəhbərlərinin Çiçerin və Orconikidzeyə göndərdikləri məlumat maraq doğurur: "Artıq sovet Azərbaycanının tərkibinə daxil olan, guya mübahisəli sayılan Zəngəzur və Qarabağa gəldikdə isə qətiyyətlə bildiririk ki, bu yerlər mübahisəlidir və bundan sonra da Azərbaycanın hüdudlarında yerləşdirilməlidirlər. Başdan-başa müsəlmanlarla məskunlaşan, bir ildən artıqdır ki, ayrı düşən və yerli əhalinin qüvvələri ilə daşnak hökumətindən müdafiə olunan Culfa və Naxçıvan rayonları həm hərbi cəhətdən, həm də Türkiyə ilə bilavasitə əlaqə məqsədilə bizim qoşunlarla tutulmalı və Azərbaycana birləşdirilməlidirlər".

Orconikidze iyun teleqramında Zəngəzuru Azərbaycan ərazisi kimi qəbul etdiyi halda, Çiçerinə vurduğu iyul teleqramında Zəngəzuru mübahisəli ərazi elan edərək digər bölgələrin... Ermənistana birləşdirilməsi fikrini irəli sürmüşdü.

Zəngəzurda sovet hakimiyyəti elan edilsə də XI ordunun loyal mövqeyi nəticəsində Njde və Dronun silahlı qüvvələri bildiklərini edir, nəticədə, ermənilər qəza inqilab komitəsi yaratdılar. Azərbaycan Gorusda Zəngəzur qəza komitəsi yaratdı və komitənin sədri Şirvani, onun müavini isə milliyyətcə erməni olan Qaragözov təyin edildilər. Ancaq, təəssüf ki, Zəngəzura sovet hakimiyyəti tərəfindən heç bir kömək və yardım göstərilmədi.

Moskvaya Zəngəzurun kimin torpağı olması o qədər də maraqlı deyildi. Ona Ermənistanda sovet hökumətini qurmaq maraqlı idi. Sovet Rusiyası Azərbaycanda sovet hökuməti qurulduqdan sonrakı aylarda Zəngəzuru, Qarabağ və Naxçıvanı hər bəhanə ilə Azərbaycana qaytarmağın zəruriliyini qeyd edirdisə, artıq Ermənistanda sovet hökuməti qurulduqdan sonra sovet rəhbərliyi başqa bir tezislə "yalnız sovet hakimiyyəti Zəngəzuru Ermənistana birləşdirə bilər və Qarabağa muxtariyyət hüququ verə bilər" tezisi ilə çıxış etməyə başladı.

Ermənistanda sovet hakimiyyəti qurulana qədər Stalin "Zəngəzur və Naxçıvanı Ermənistanın indiki hökumətinə vermək olmaz" deyirdisə, Ermənistanda sovet hakimiyyəti qurulduqdan iki gün sonra-dekabrın 1-də Stalin Bakı sovetində keçirilən iclasda N.Nərimanovu Zəngəzurun sovet Ermənistanına verilməsi barədə bəyanatla çıxış etməyə məcbur etmişdi. Həmin bəyanatda Zəngəzur və Naxçıvan qəzaları sovet Ermənistanının ərazisi elan edilirdi.

Stalin və Orconikidze bu "bəyanatı" tamamilə bəyəndiklərini bildirmişdilər. Orconikidze bu bəyanatı "bəşəriyyət tarixində nümunəsi olmayan mühüm əhəmiyyətli tarixi akt" kimi qiymətləndirmişdi. Stalin isə fikrini belə ifadə etmişdi: "Dekabrın 1-də sovet Azərbaycanı mübahisəli vilayətlərdən könüllü olaraq əl çəkir. Zəngəzur, Naxçıvan və Dağlıq Qarabağın sovet Ermənistanına verilməsini elan edir".

N.Nərimanov yanıldığını, tarixi səhvə yol verdiyini etiraf etmiş, onu millətçilikdə günahlandıranlara cavab olaraq demişdir: "Əgər Azərbaycanın müsəlman kommunistlərinin əksəriyyəti... millətçilik əhvali-ruhiyyəsində olsaydı, inanın ki, Ermənistan Zəngəzuru almazdı, Gürcüstana müftə neft verilməzdi".

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra ermənilərin Zəngəzuru Azərbaycandan qoparmaq siyasəti daha da fəallaşmış, Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra bunu həyata keçirmək mümkün olmuşdu. Sovet Rusiyasının yaxından iştirakı ilə Zəngəzur qəzası torpaqlarının böyük bir hissəsi – 4,5 min kvadratkilometr ərazisi Ermənistana ilhaq edilmişdi. Bu tarixi səhvin nəticəsində Zəngəzur mahalının qərb hissəsi itirildi və hətta Azərbaycanın 1921-ci ildə tərtib olunan xəritələrində belə Ermənistanın ərazisi kimi verildi.



Qərbi Zəngəzurun itirilməsi ilə bağlı Ulu Öndər Heydər Əliyev demişdir: ***"XX əsrin 20-ci illərində, yəni sovet hakimiyyəti təzə qurulan zaman Qafqazda respublikaların sərhədləri yaranarkən Azərbaycana qarşı ədalətsizlik edilibdir. Azərbaycanın qədim torpaqları olan Zəngəzur mahalı və başqaları Ermənistana verilibdir. Bununla əlaqədar Zəngəzurun Araz çayı sahilində olan, qədim Azərbaycan torpağı olan Mehri rayonu da Ermənistana verilibdir. Beləliklə, böyük Azərbaycan ilə onun ayrılmaz hissəsi olan Naxçıvan arasında coğrafi nöqteyi-nəzərdən müəyyən çətinliklər yaranıbdır".***

Ermənistan Xalq Komissarları Sovetinin 1921-ci il 20 iyul tarixli qərarı ilə Ermənistan SSR 9-cu qəza olan Zəngəzur qəzasını yaratdı. Zəngəzur qəzasının tərkibində indiki Sisyan, Qafan, Gorus rayonları və Meğri (Mehri) rayonunun bir hissəsi daxil edildi. Zəngəzur bir tarixi vilayət kimi ləğv edildi.

Zəngəzurun Ermənistana verilməsi prosesi sonrakı illərdə də davam etdirildi. 1927-ci ildə Zaqafqaziya MİK Rəyasət Heyətinin qərarı ilə Azərbaycanın Mehri-Cəbrayıl qəzasının 27 kəndi, Zəngəzur-Kürdüstan qəzasının isə 10 min desyatindən çox yaylaq ərazisi Ermənistana peşkəş edildi. 1929-cu il fevralın 18-də isə Zaqafqaziya MİK Rəyasət Heyətinin qərarı ilə Zəngilan rayonunun daha 3 kəndi – Nüvədi, Ernəzir və Tuğut kəndləri Ermənistana verilməklə Zəngəzurda daha bir erməni rayonu – Menru rayonu təsis edildi.

Tarixi Azərbaycan torpaqları olan Zəngəzur qəzasının böyük bir hissəsinin Ermənistana ilhaq edilməsi ilə birgə Azərbaycana daha bir zərbə vurulmuş, Naxçıvan Azərbaycandan ayrı salınmışdı. Ermənilərin məqsədi Naxçıvanı ilhaq etmək idi. Naxçıvanın qəhrəman övladlarının sayəsində ermənilər buna nail ola bilmədilər. 1923-cü ildə Ermənistanın ilk baş naziri O.Kaçaznuni öz hesabatında bunu açıq etiraf etmişdir.

İkinci Dünya müharibəsi ərəfəsində Zəngəzur ərazisindən keçməklə Naxçıvan ərazisinə dəmir yolu çəkilmişdir və onun fəaliyyəti XX yüzilliyin 90-cı illərinin əvvəlinə kimi davam etmişdir. Lakin Ermənistanın Dağlıq Qarabağı Ermənistana birləşdirmək siyasəti Azərbaycan-Ermənistan qarşıdurmasına və müharibələrinə gətirib çıxarmışdır. Bundan istifadə edən Ermənistan Naxçıvana gələn kommunikasiyaları Zəngəzur dəhlizində kəsmiş, nəticədə, Naxçıvanın Azərbaycanla quru əlaqəsi pozulmuş, ərazi blokada vəziyyətinə düşmüşdür. Otuz ildir ki, Naxçıvan blokada şəraitində yaşayır.

Dağlıq Qarabağın və onun ətrafındakı rayonların azad edilməsi üçün 44 gün davam edən Vətən müharibəsi – İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsi Zəngəzuru bir daha gündəmə gətirdi. Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin 2020-ci il 10 noyabr Bəyanatının sonuncu, 9-cu bəndində göstərilirdi ki, "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək". Bəyanatda ümumi şəkildə ifadə edilməsinə baxmayaraq, bu maddənin mərkəzi məsələsini Zəngəzur dəhlizi təşkil edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "CNN Türk" televiziya kanalına müsahibəsində Zəngəzur dəhlizi məsələsindən bəhs edərkən demişdir: ***"... Zəngəzur dəhlizinin tam fəaliyyəti üçün həm dəmir yolu, həm avtomobil yolu olmalıdır. Biz Bakıda avtomobilə əyləşib oradan rahatlıqla Türkiyəyə və Naxçıvana keçə bilərik. Bu, eyni zamanda bölgə ölkələri üçün də yeni fürsət olacaq. Türkiyə öz mallarını Orta Asiyaya bu daha qısa yolla, alternativ yolla daşıya biləcək. Beləliklə, bu, Avrasiyanın yeni bir nəqliyyat layihəsinə çevrilə bilər. Biz bunu artıq təşəbbüs olaraq ortaya qoymuşuq. Bu dəhlizə Zəngəzur dəhlizi adını da biz qoymuşuq. Artıq, bu, beynəlxalq leksikona da daxil edilibdir".***

Tarixi Şuşa Bəyannaməsində Zəngəzur dəhlizinə xüsusi yer verilmişdir. Bəyannamədə deyilir: "Tərəflər Azərbaycan və Türkiyəni birləşdirən Azərbaycan Respublikasının qərb rayonları ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında dəhlizin (Zəngəzur dəhlizi) açılmasının və həmin dəhlizin davamı kimi Naxçıvan-Qars dəmir yolunun tikintisinin iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsinə mühüm töhfə verəcəyini qeyd edirlər".

Zəngəzur dəhlizi məsələsi ilə birgə, işğaldan azad edilmiş ərazilərin iqtisadi baxımdan rayonlaşdırılması istiqamətində də ciddi addım atıldı. Prezident cənab İlham Əliyevin "Azərbaycan Respublikasında iqtisadi rayonların yenidən bölgüsü haqqında" 2021-ci il 7 iyul tarixli fərmanı ilə Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) yaradıldı.

Zəngəzurla bağlı mühüm geosiyasi və iqtisadi məsələlərin gündəmə çevrilməsi onun tarixini də aktuallaşdırmışdır.

Göründüyü kimi, sovet hakimiyyəti illərində həyata keçirilən erməni yönlü siyasət, etnik təmizləmə prosesi indi Ermənistan deyilən qədim Azərbaycan torpaqlarından azərbaycanlıların didərgin salınmasına səbəb oldu.

Yaradılarkən, hətta on min kvadratkilometr əraziyə malik olmayan Ararat Respublikası 1920-ci ilin ortalarında dövlətin adını Ermənistan Respublikasına çevirməklə Azərbaycan torpaqlarına yiyələnmək üçün himayədarlarının köməyi ilə mərhələ-mərhələ öz məqsədlərinə nail olurdu. Təbii ki, sovet Rusiyası, sonra isə SSRİ deyilən imperiya və onun ermənipərəst rəhbərləri bu sahədə onlara hər cür kömək və yardım göstərirdilər. Ərazinin qədim sakinləri həmin ərazilərdən deportasiya olundu, qaçqın və məcburi köçkünə çevrildi. Azərbaycanlılara məxsus tarixi torpaqlarda ermənilər məskunlaşdırıldı. Bundan sonra ermənilərin Zəngəzura, Naxçıvana, İrəvana, Qarabağa, Dərələyəzə torpaq iddiaları artdı. Bunların bir qisminə nail olub, yiyələndilər. "Böyük Ermənistan" uydurması ilə tarixi torpaqlarımıza yiyələnmək arzusundan əl çəkmədilər.

*Lakin bu ədalətsizlikləri Azərbaycan xalqı unutmur, öz tarixi torpaqlarına qayıtmaları üçün fəaliyyət göstərir. İkinci Qarabağ müharibəsi bunu bir daha təsdiq etdi. Sərhədlərin delimitasiya və demarkasiyası itirilmiş torpaqlarımızın qaytarılması üçün əsas verir. Bununla da, iki yüz ildən artıq davam edən erməni ideologiyasına son qoyulacaqdır. Başqa ərazilərlə yanaşı, Qərbi Zəngəzur torpaqları da ana Vətənlə birləşəcəkdir.*

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

Dövlət Proqramı icra olunur

# "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" – müasir Naxçıvanın yeni yüksəlişinin yol xəritəsi

*Son illər ərzində regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının icrası nəticəsində, demək olar ki, bölgələrin siması dəyişib. Bu tərəqqi, innovativ inkişaf, əlbəttə ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasından da yan ötməyib. Dövlət proqramları çərçivəsində görülmüş işlər Naxçıvanın qarşıdakı illərdə də inkişafı üçün geniş imkanlar açıb. Hazırda bu imkanlardan istifadə edilməklə muxtar respublikanın sosial-iqtisadi həyatında, o cümlədən əlverişli biznes mühitinin formalaşdırılması, investisiyaların cəlb edilməsi nəticəsində ixracyönlü dəyər zəncirinin qurulması əsas prioritetlərdən birinə çevrilib.*

Bu isə, öz növbəsində, Naxçıvanın sosial-iqtisadi inkişafı ilə əlaqədar kompleks proqramların hazırlanması və icrasının davam etdirilməsi zərurəti yaradıb. Məhz bütün bunları nəzərə alan Prezident cənab İlham Əliyev iyunun 5-də "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramının təsdiq edilməsi haqqında" Sərəncam imzalayaraq müasir Naxçıvanın yeni yüksəlişinin yol xəritəsini müəyyənləşdirib.

Prezidentin müəyyənləşdirdiyi "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" məhz yeni mərhələdə müəyyən vəzifələrin reallaşdırılması prioritet istiqamətlər üzrə tədbirlərin maliyyələşmə mənbələrini, regionun sosial-iqtisadi inkişafı sahəsində əldə olunacaq hədəf göstəricilərini özündə ehtiva edir.



Təsdiq olunan yeni Dövlət Proqramının həyata keçirilməsi məqsədilə hazırlanmış Təfsilatlı Tədbirlər Planında Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin qarşısına da bir sıra mühüm vəzifələr qoyulub.

Təfsilatlı Tədbirlər Planında Naxçıvanda azad iqtisadi zonanın yaradılması muxtar respublikanın inkişaf konsepsiyasının ana maddəsidir. Bu Dövlət Proqramının mövcud reallıqlar bölməsində regionun xarici dövlətlərlə sərhəddə yerləşməsi nəzərə alınmaqla bölgədə vergi və gömrük güzəştləri müəyyən edilməklə rəqabətqabiliyyətli ticarət qovşağının yaradılması imkanının dəyərləndirilməsi deməkdir.

Muxtar respublikaya investisiyaların cəlb edilməsi və bu investisiyaların artırılması hərtərəfli inkişaf üçün vacibdir. Bu baxımdan Tədbirlər Planında nəzərdə tutulan yerli və xarici investisiyaların cəlb edilməsi ilə bağlı tədbirlər görülməsi mühüm əhəmiyyətə malik olduğundan gələn il Naxçıvan Muxtar Respublikasında yerli və xarici investorların (sahibkarların) iştirakı ilə İnvestisiya Forumu keçirilməsi planlaşdırılır. Həmçinin "İnvest in Nakhchivan" veb-səhifəsinin hazırlanması məqsədilə səhifənin eskizi, predmetə uyğun olaraq əsas şərtlər toplusu hazırlanmış və yaxın zamanda dövlət satınalmalarının vahid internet portalında müsabiqəsi elan olunacaqdır.

İqtisadiyyatın prioritet sahələri üzrə investisiya layihələrinin hazırlanması bəndinə uyğun olaraq investisiya qoyulması prioritet olan sahələr, o cümlədən inşaat materialları, şüşə tutumlar, baramaçılıq və ipəkçilik, səhiyyə, dini və ənənəvi turizm, yaşıl enerji, kənd təsərrüfatı məhsulları tədarükü və emalı, günəş panelləri, avtomobil və texnikalar üçün ehtiyat hissələri, pivot suvarmada istifadə olunan metal konstruksiyalar, boyalar üçün xammal, soda, natrium xlorid, gil xammalı, teşenit yatağından xarici və daxili divarların üzlənməsi üçün təbii daş bloklar, çini və saxsı qablar, efir yağı, üzvi gübrə, bitumlu membran, corab, sabun, dəftər və qələm istehsalı üzrə sahələr müəyyənləşdirilib. Sentyabrın əvvəlində "Naxçıvan Saray"da Türkiyə Respublikasının iş adamları ilə keçirilən işgüzar görüşdə həmin sahələrin təqdimatı olub.

Sahibkarlıq subyektlərinə güzəştli kreditlərin verilməsi, maliyyə zəmanəti və digər iqtisadi dəstək mexanizmlərinin tətbiq dairəsinin genişləndirilməsi Təfsilatlı Tədbirlər Planında öz əksini tapıb. Həmçinin Tədbirlər Planının alt bəndində görüləcək işlər sırasında Naxçıvana güzəştli kreditlərin verilməsi ilə bağlı məqsədli limitin ayrılması nəzərdə tutulub.

Ötən dövr ərzində bu istiqamətdə Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondu tərəfindən Naxçıvanda fəaliyyət göstərən banklara ilkin olaraq 15.000.000,0 manat həcmində vəsait ayrılıb. Muxtar respublikada "Bank Respublika", "AccessBank" və "NaxçıvanBank" Açıq Səhmdar cəmiyyətləri Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondu ilə müqavilələr bağlayaraq müvəkkil banklar qismində fəaliyyət göstərirlər.

Naxçıvan Muxtar Respublikasının Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxsi hazırda "Azərbaycan Beynəlxalq Bankı", "Naxçıvanbank" ASC, "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti ilə əməkdaşlıq müqaviləsi bağlayıb. Daha iki bank müvəkkil qismində fəaliyyət göstərmək istəyi ilə Fonda müraciət edib.

İqtisadi inkişafın müasir mərhələsində mühüm məqsədlərdən biri idxalın məhdudlaşdırılması və bu əsasda yerli məhsul istehsalının stimullaşdırılması, nəticə etibarilə, ixracyönümlü məhsul istehsalının həcminin artırılmasından ibarətdir. Təsdiq olunan sənəddə Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsulların digər bazarlara ixracını təşviq etmək məqsədilə logistik dəstək verilməsi hədəflənir. Bu istiqamətdə muxtar respublikada logistik şirkətin yaradılması nəzərdə tutulub.

Təfsilatlı Tədbirlər Planında sənaye parkının və məhəlləsinin yaradılması ilə bağlı müvafiq tədbirlərin həyata keçirilməsi də qeyd olunub. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən aidiyyəti qurumların nümayəndələrindən ibarət komissiya yaradılıb. Ötən müddət ərzində sənaye parkının yaradılması istiqamətində iş aparılıb, nəticədə, Naxçıvan-Sədərək avtomagistralının sol tərəfində Naxçıvan şəhərinin inzibati ərazisinə aid əkin üçün tam yararsız olan 310 hektar ərazi və Sədərək və Şərur rayonlarının sərhədlərində yerləşən 1500 hektar sahəni əhatə edən bələdiyyə və dövlət mülkiyyətinə məxsus əkin üçün qismən yararsız ərazilər müəyyən edilib. Həmçinin komissiya tərəfindən Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin sənaye parkının tikilməsi üçün müəyyənləşdirdiyi ərazilərə baxış keçirilməsi planlaşdırılır.

Şərur Sənaye Məhəlləsinin fəaliyyətə başlamasının təmin edilməsi istiqamətində müvafiq işlər görülüb. Şərur Sənaye Məhəlləsində 2023-cü ilin əvvəlinədək cəmi 3 istehsal sahəsi fəaliyyət göstərirdi. Artıq sənaye məhəlləsində ayaqqabı, tikili mallar, Avropa qapıları, mebel, kağız kisə, karton tara istehsalı sahələri olmaqla, 7 sahibkarlıq sahəsi fəaliyyət göstərir. Bitki yağı, unlu qənnadı məmulatları, qəlyan tütünü istehsalı sahələrinin qurulması istiqamətində işlər davam etdirilir. Bununla yanaşı, Şərur Sənaye Məhəlləsinin boş qalan ərazisində tekstil müəssisənin qurulması və sahibkarlıq subyektləri tərəfindən daxil olan 20 layihə üzrə işlər aparılmaqdadır.

Naxçıvan Muxtar Respublikasında istehsal edilən məhsulların ixrac coğrafiyasının şaxələndirilməsi istiqamətində ilkin olaraq muxtar respublikada istehsal edilən ixrac potensiallı məhsullar müəyyənləşdiriləcək, məhsulların vahid reyestr və rəqəmsal kataloqu hazırlanacaqdır. Eyni zamanda ölkə daxilində və xaricdə keçirilən beynəlxalq sərgilərdə, müxtəlif ölkələrdə olan Ticarət evlərində Naxçıvanda istehsal edilən məhsulların nümayişi təşkil olunacaq, həmçinin xarici tərəfdaşların tapılması istiqamətində işlər aparılacaqdır.



Artıq bu istiqamətdə potensial ixrac bazarlarında baş verən tendensiyalar öyrənilir, ixrac potensiallı məhsulların bu bazarlara çıxarılması istiqamətində araşdırma aparılır, sahibkarların müraciətləri əsasında ixracla bağlı müvafiq məlumatlar verilir. Eyni zamanda AZPROMO tərəfinən tətbiq edilən "Microsoft Bİ" interaktiv vizualizasiya məlumat proqramı üzrə təlim keçməsi üçün Nazirliyin 2 əməkdaşı Bakı şəhərinə ezam olunub.

İxracyönlü potensial sənaye sahələri üzrə layihələrin hazırlanması və layihələrə investisiyaların cəlb edilməsi bəndinə uyğun olaraq Nazirlikdə müvafiq əmr əsasında Komissiya yaradılıb. Komissiya tərəfindən ilkin olaraq sənaye sahələri müəyyənləşdirilmiş layihələrin hazırlanması istiqamətində işlər aparılır.

İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən layihələrdə Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsullardan istifadənin təşviq edilməsi proqramın əsas məqsədlərindən biridir. Digər mühüm bir fakt isə Cəbrayılda yaradılacaq "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında Naxçıvan sahibkarlarının da fəaliyyətinin nəzərdə tutulmasıdır. Bu məqsədlə cari ilin iyun ayında "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətində 35 sahibkarlıq subyektinin iştirakı ilə görüş keçirilib. Qeyd edək ki, sənaye parkında muxtar respublika sahibkarlarının logistik fəaliyyəti üçün də 14 hektar sahə müəyyənləşdirilib. Sahibkarlarla aparılan maarifləndirmə tədbirlərinin nəticəsi olaraq 3 sahibkarlıq subyekti "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında 1700 kvadratmetr ərazinin onlara ayrılmasını təklif edib.

Təfsilatlı Tədbirlər Planında kənd təsərrüfatı məhsullarının emal və qablaşdırma sahələrinin inkişaf etdirilməsi məqsədilə istehsal müəssisələrinin yaradılması nəzərdə tutulur. Bundan başqa, kənd təsərrüfatı məhsullarının emalı üzrə müxtəlif təyinatlı müəssisələrin, eləcə də qablaşdırma və tara müəssisəsinin yaradılmasının təşviq edilməsi planlaşdırılır. Bu məqsədlə kənd təsərrüfatı sahələri üzrə müxtəlif təyinatlı kiçik və orta fermer təsərrüfatlarının yaradılması üçün Sahibkarlığın İnkişafı Fonduna müraciət edən sahibkarlar, ailə təsərrüfatçıları bu istiqamətdə təşviq edilir. Cari ilin ötən dövrü ərzində Fond tərəfindən heyvandarlıq təsərrüfatları və soyuducu anbarları yaradılması yönümlü 18 layihəyə 450.000,0 manat həcmində dövlət maliyyə dəstəyi göstərilib.




Digər mühüm bir tapşırıq startap layihələrin dəstəklənməsi ilə bağlı tədbirlərin həyata keçirilməsidir. Tapşırığın icrası məqsədilə sahibkarlıq subyektləri ilə görüşlər keçirilərək "Startap Şəhadətnaməsi" və qrantla bağlı dövlət dəstək mexanizmləri barədə onların məlumatlandırılması təmin ediləcəkdir.

Təfsilatlı Tədbirlər Planında nəzərdə tutulan Naxçıvanda həyata keçirilən dövlət satınalmalarının vahid internet portalına inteqrasiyasının reallaşdırılması geniş rəqabət mühitinin yaradılmasına və satınalma prosedurlarında şəffaflığın təmin olunmasına xidmət edir. Ötən dövr ərzində dövlət satınalmalarının vahid elektron portalına inteqrasiyası təmin olunub, muxtar respublikada fəaliyyət göstərən dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən dövlət vəsaitləri hesabına malların (işlərin və xidmətlərin) satınalınması ilə bağlı 262 müsabiqə həyata keçirilib.

Dövlət Proqramının əsas istiqamətləri sırasında mikro, kiçik və orta biznesin dəstəklənməsi istiqamətində fəaliyyətin inkişaf etdirilməsi və dövlət xidmətlərinin təşkil olunması prioritet kimi müəyyən edilib. Sahibkarlara göstərilən xidmətlərin yaxşılaşdırılması və effektivliyinin artırılması, bu sahədə operativliyin və rahatlığın təmin olunması baxımından aidiyyəti qurumlarla danışıqlar aparılıb, KOB dostları yaradılacaq məkanları müəyyən edib. Cari ilin aprel ayında Naxçıvan şəhəri və Babək, Culfa-Ordubad, Şərur-Sədərək, Şahbuz-Kəngərli rayonları üzrə KOB dostları fəaliyyətə başlayıb.

Təfsilatlı Tədbirlər Planında dövlət əmlakının registr proqram təminatının yaradılması və inteqrasiyası öz əksini tapıb. Bu məqsədlə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən Nazirliyin aidiyyəti şöbəsində "MAES" proqram təminatı qurulub, inteqrasiyanın təmin edilməsi və zəruri olan işlərin görülməsi məqsədilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki "İnformasiya Texnologiyaları və Məlumat İdarəetmə Mərkəzi" MMC-nin mütəxəssisləri sentyabr ayının əvvəlində Nazirliyə ezam olunub.

Ezamiyyə müddətində mütəxəssilər tərəfindən Nazirlikdə mövcud informasiya sistemlərinin analizi aparılıb, hazırda vahid sistemə inteqrasiya olunması istiqamətində işlər görülür.

Yeni Dövlət Proqramının icrası çərçivəsində Naxçıvan Muxtar Respublikasına texniki yardım və qrant layihələri cəlb ediləcəkdir. Təfsilatlı Tədbirlər Planında müəyyən edilmiş müddət ərzində müvafiq donor təşkilatlarla danışıqlar aparılması və layihələrin müəyyənləşdirilməsi, texniki yardım və qrant layihələrinin icra edilməsi, beləliklə də beynəlxalq təcrübələrin tətbiqi ilə sosial-iqtisadi sahələrdə inkişafa nail olunması nəzərdə tutulub.

*"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrasının müvəffəqiyyətlə davam etdirilməsi muxtar respublikamızın sosial-iqtisadi qüdrətinin daha da artırılmasına təkan verəcəkdir.*

**Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti**

# Vergiödəyicilərinin uçot məlumatlarının dürüstləşdirilməsi prosesi başa çatıb

Naxçıvan Muxtar Respublikasında sahibkarlıq fəaliyyəti həyata keçirən vergiödəyicilərinin uçot məlumatlarının yeni vergi inzibatçılığı çərçivəsində dürüstləşdirilməsi prosesinə yekun vurulub.

Bu ilin may-avqust aylarında muxtar respublika üzrə 4.691 obyektdə uçot məlumatlarının dürüstləşdirilməsi aparılıb. Dürüstləşdirmə işləri zamanı vergiödəyicilərinin faktiki uçot məlumatları ilə vergi orqanlarının uçot baza məlumatlarının müqayisəsi zamanı 12.542 kənarlaşma aşkarlanıb. Bununla yanaşı, təsərrüfat obyektlərinin mövcudluğu, vergiödəyicilərinin və obyektlərinin fəaliyyət növü, təsərrüfat subyektinin (obyektinin) vəziyyəti (aktiv, passiv), obyektdən istifadə hüquqlarının araşdırılması, sahəsi və digər uçot məlumatları dəqiqləşdirilib. Dürüstləşdirmə dövründə 361 ədəd köhnə nəsil nəzarət-kassa aparatının (NKA) qeydiyyatdan çıxarılıb, 279 ədəd yeni nəsil NKA-nın və 302 ədəd POS-terminalın tətbiqi təmin edilib.

Qeyd edək ki, dürüstləşdirilmə prosesi çərçivəsində uçot məlumatlarında olan uyğunsuzluqlar və müşahidə zamanı aşkar edilmiş kənarlaşmalar vergiödəyicilərini və təsərrüfat subyektlərini yerində məlumatlandırmaqla aradan qaldırılıb.

**Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti**

## “Vətən müharibəsi: Azərbaycanın Zəfər yolu” mövzusunda elmi konfrans keçirilib



*AMEA Naxçıvan Bölməsində Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun təşkilatçılığı ilə “Vətən müharibəsi: Azərbaycanın Zəfər yolu” mövzusunda elmi konfrans keçirilib.*

Tədbirin əvvəlində Vətənimizin ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra bölmənin sədri, akademik İsmayıl Hacıyev konfransda giriş sözü söyləyib. Akademik böyük dövlətlərin havadarlığı ilə ermənilərin Azərbaycan torpaqlarında məskunlaşdırılmasından, tarixi torpaqlarımız hesabına dövlət qurmaq və “əraziləri” genişləndirmək cəhdlərindən, Rusiyanın “sovetləşdirmə” adı altında Azərbaycan torpaqlarını ermənilərə güzəştə getməsindən danışıb. BMT-nin yerinə yetirilməyən 4 qətnaməsindən, ATƏT-in Minsk Qrupunun yarıtmaz fəaliyyətindən bəhs edən bölmə sədri ABŞ, Rusiya, Fransa və qardaş Türkiyənin məsələ ilə bağlı mövqeyini dəyərləndirib.

“2020-ci ilin 27 sentyabrında müzəffər Ordumuzun başladığı hərbi əməliyyatlar 44 gün sonra işğalçı Ermənistanın kapitulyasiya aktına imza atması ilə başa çatdı. Azərbaycan öz ərazi bütövlüyünü təmin etdi”, – deyən İsmayıl Hacıyev xatırladıb ki, Prezident cənab İlham Əliyevin 2 dekabr 2020-ci ildə imzaladığı Sərəncamla 27 sentyabr tarixi Azərbaycan Respublikasında “Anım Günü” kimi təsis edilmişdir.

Vurğulanıb ki, ötən 3 il ərzində Ermənistan adəti üzrə terror əməllərindən əl çəkməmiş, bu qeyri-insani fəaliyyətini davam etdirmişdir. Azərbaycanın erməni terroristlərinə qarşı 19-20 sentyabr tarixlərdə keçirdiyi lokal antiterror əməliyyatı nəticəsində qanunsuz erməni silahlı birləşmələri şanlı ordumuz qarşısında ağ bayraq qaldırmış, Qarabağın erməni icmasının nümayəndələri ilə görüş keçirilmişdir. Akademik keçirilən görüşün nəticələri barədə konfrans iştirakçılarına məlumat verib.

Konfransda Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük laborantı Əli Tağıyevin “Dağlıq Qarabağ problemi: tarix və müasirlik”, tarix üzrə fəlsəfə doktoru, dosent İlhami Əliyevin “ATƏT-in Minsk Qrupunun Qarabağ probleminin həllindəki “fəaliyyəti”, tarix üzrə fəlsəfə doktoru Musa Quliyevin “44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun qələbəsi” və tarix üzrə fəlsəfə doktoru, dosent Zeynəb Quliyevanın “İkinci Qarabağ müharibəsinin nəticələri: Şuşa Bəyannaməsi və Zəngəzur dəhlizi məsələləri” adlı məruzələri dinlənilib.

Məruzələrdə Azərbaycanda xanlıq idarəetmə üsulunun formalaşmasından başlayaraq günümüzədək Qarabağ bölgəsində baş verən mühüm tarixi hadisələr diqqətə çatdırılıb, ermənilərin torpaqlarımıza məqsədli köçürülməsindən, xalqımıza qarşı həyata keçirdikləri milli qırğın və işğalçılıq siyasətindən söz açılıb. Hadisələr bu gün dövlətimiz tərəfindən uğurla yürüdülən siyasət əsasında təhlil olunub. ATƏM-in təsis edilməsi, Minsk Qrupunun fəaliyyəti və həmsədr ölkələrin Azərbaycana qarşı sərgilədikləri ermənimeyilli münasibət diqqətə çatdırılıb. ATƏT-in Minsk Qrupunun fəaliyyəti dövründə Dağlıq Qarabağ probleminin həlli istiqamətində irəli sürdüyü təkliflər və onların ölkəmizin ərazi bütövlüyünə zidd tərəfləri qeyd edilib. 44 günlük Vətən müharibəsində Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında şanlı Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad etməsindən, ələ keçirilən mühüm qənimətlərdən, Azərbaycan-Ermənistan münasibətlərində son vəziyyət, ölkəmizin qətiyyətli mövqeyindən bəhs olunub. Vətən müharibəsindəki Böyük Zəfərin tarixi əhəmiyyətinə, Zəngəzur dəhlizinin açılması ilə Azərbaycanın beynəlxalq aləmə verəcəyi töhfələrə, dəhlizin önəminə diqqət çəkilib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş müsabiqələrin qaliblərini təltifetmə mərasimi olub



Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Əl işləri sərgi-müsabiqəsi”nin yekun tədbiri olub. Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Həsən Seyidov əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət mədəniyyət siyasətindən bəhs edib. Vurğulayıb ki, mədəniyyətin bütün sahələrinin inkişafı, onun qorunması, təbliği, gənc nəslin bu ruhda tərbiyələndirilməsi bu gün də dövlət mədəniyyət siyasətinin əsas prioritetlərindəndir.

“Əl işləri sərgi-müsabiqəsi”nin “Heydər Əliyev İli” çərçivəsində Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən təsdiq olunan “Tədbirlər Planı”na əsasən keçirildiyini diqqətə çatdıran Həsən Seyidov əlavə edib ki, Nazirliyin sisteminə daxil olan mədəniyyət sarayları, mədəniyyət evləri və klublarının əməkdaşları, bu müəssisələrdə fəaliyyət göstərən dərnək üzvləri arasında təşkil edilən müsabiqənin məqsədi Heydər Əliyev irsini təbliğ etmək, istedadlı şəxsləri üzə çıxarmaq, onların yaradıcılıq potensialını inkişaf etdirmək, aktiv peşəkar sənətə istiqamətləndirmək, yeniyetmə və gənclər arasında maddi və mənəvi dəyərlərimizə məhəbbət hissini aşılamaqdır. İki yaş qrupu üzrə iştirakçıların təmsil olunduğu, 48 müraciət əsasında 68 əl işinin dəyərləndirildiyi sərgi-müsabiqəyə qəbul olunmuş əl işləri hər yaş qrupu üzrə “Ən yaxşı toxuma”, “Ən yaxşı rəsm”, “Ən yaxşı əl işi” nominasiyaları üzrə qiymətləndirilib.

Sonra təltifetmə mərasimi gerçəkləşib.

Tədbirdə, həmçinin bu ilin aprel ayında keçirilmiş, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Folklorumuzun söz yaddaşı” adlı bədii qiraət müsabiqəsinin qalibləri də təltif edilib, sonda sərgiyə baxış olub.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## “Naxçıvan Qaziləri” İctimai Birliyi özündə vətənpərvər oğulları birləşdirir

*Vətənimizin vətənpərvər, qəhrəman, cəsur oğulları vardır. Məhz bu oğulların sayəsində 2020-ci il sentyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsində Zəfər çaldıq, Qarabağımıza qovuşduq. II Qarabağ müharibəsində Naxçıvandan olan oğullar da iştirak edib, böyük qəhrəmanlıq və şücaət göstəriblər. Canları, qanları bahasına müharibə meydanında döyüşərək şəhidlik zirvəsinə ucalıblar, qazi adını qazanıblar. Dövlətimiz daim şəhid ailələrinin, qazilərin qayğısına qalır. Bir sıra dəstək fondları, ictimai birliklər, xüsusilə “YAŞAT” Fondu Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananlara və şəhid ailələrinə daim dəstək göstərir.*






Muxtar respublikamızda da dövlət siyasətinin davamı olaraq şəhid ailələri və qazilərimiz daim diqqət mərkəzində saxlanılır. Onlarla görüşlər davam edirilir, sosial qayğıları yerində öyrənilir, həlli ilə bağlı müvafiq tədbirlər həyata keçirilir.

Qazilərə, şəhid ailələrinə, müharibə veteranlarına qanunla şamil olunan güzəşt və imtiyazlardan istifadədə kömək etmək məqsədilə “Naxçıvan Qaziləri” İctimai Birliyi yaradılıb. Birlik özündə Vətənimiz Azərbaycanın ərazi bütövlüyü uğrunda erməni işğalçı ordusuna qarşı döyüşmüş və yaralanmış qaziləri birləşdirir. Birlik haqqında daha geniş məlumatı “Naxçıvan Qaziləri” İctimai Birliyinin müavini, ehtiyatda olan baş leytenant, tankçı qazi ***Əli Əlisoy***dan alırıq. Müsahibim hazırda Şərur rayonunun Kürkənd məktəbində hərbi rəhbər kimi fəaliyyət göstərir. II Qarabağ müharibəsinin iştirakçısı olan Əli Əlisoy torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə iki dəfə yaralanıb və səkkiz dəfə əməliyyat olunub. Qazimizin əməliyyat xərcləri “YAŞAT” Fondu tərəfindən qarşılanıb. 2021-ci ilin avqust ayında ehtiyata buraxılıb. Ölkə başçısının müvafiq sərəncamlarına əsasən “Vətən müharibəsi iştirakçısı”, “Cəsur döyüşçü”, “Füzulinin azad olunmasına görə” medalları ilə təltif olunub. Qazimizə dövlət qayğısı göstərilib, 2021-ci ildə avtomobil, 2022-ci ildə 2 otaqlı mənzillə təmin olunub.

Əli Əlisoy şanlı Vətən müharibəsindən danışdı: – 44 günlük Vətən müharibəsi xalqımızın birliyi, ölkə başçısının siyasi iradəsi, qeyrətli Vətən oğulları sayəsində Qələbə ilə nəticələndi. Bu müharibə göstərdi ki, Vətən dara düşəndə onun bir qarışını öz varlığından, ailəsindən, doğmalarından üstün tutan insanlarımız – qeyrətli kişi və qadınlarımız vardır. Evin tək oğlu olub şəhidliyi seçən və ya iki qardaş olub ikisi də şəhidlik zirvəsinə ucalanlar vardır. Şanlı Vətən müharibəsi dünyaya bir daha Azərbaycan əsgərinin gücünü göstərdi.

Müsahibim “Naxçıvan Qaziləri” İctimai Birliyi haqqında məlumat verdi: – İctimai Birlik bu il aprelin 20-də yaradılıb. Birliyə üzvlük üçün 50-dən artıq müraciət qeydə alınıb. Hazırda Birliyimizin 52 nəfər üzvü vardır. Üzvlüklə bağlı ilkin vəsiqələr paylanılıb, digər vəsiqələri 8 noyabr tarixdə verməyi planlaşdırırıq. Bu üzvlər, əsasən, əlilliyi olan qazilərimizdən ibarətdir. Birlik qeydiyyatdan keçməmişdən əvvəl qazilərə qanunla şamil olunmuş imtiyazlardan istifadədə köməklik göstərib. Birliyimizə üzv olmaq üçün sosial şəbəkədən çox müraciət daxil olur, ancaq hər müraciəti qəbul etmirik, araşdırma aparırıq, əgər uyğun deyilsə, götürmürük.

Qazimiz Birliyin əməkdaşlıq əlaqələrindən danışaraq qeyd etdi ki, Naxçıvan Dövlət Universiteti ilə əməkdaşlıq əlaqəsi qurulub və gələcək planlar üzərində işləyirlər: – Birliyə hazırda rahat fəaliyyət göstərməyimiz üçün ofis təqdim olunmayıb. Bizə bu istiqamətdə Naxçıvan Gənclər Fondu dəstək olur. İstəyirik ki, şəhidlərimizin xatirəsinə həsr olunmuş tədbirlər keçirək. Ancaq bildiyiniz kimi, ictimai əsaslarla fəaliyyət göstərdiyimiz üçün maliyyə çətinliyimiz vardır. İnanırıq ki, gələcəkdə bu məsələ də həllini tapacaqdır.

Söhbətimizdən belə bir nəticəyə gəldik ki, “Naxçıvan Qaziləri” İctimai Birliyinin əsas fəaliyyəti dövlətçiliyə dəstək olmaq gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunmasına töhfə verməklə bərabər, qazilər üçün müəyyən tədbirlər həyata keçirmək, onların problemlərinin həlli yolları üzərində çalışmaqdır.

*İnanırıq ki, muxtar respublikada bu istiqamətdə görülən işlər, həyata keçirilən layihələr, xüsusilə qəbul edilmiş proqramların icrası Birlik üzvlərinin də qarşılarına qoyduqları vəzifələri məqsədyönlü şəkildə həyata keçirmələrinə imkan verəcəkdir.*

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Beynəlxalq turnir başa çatıb

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Gimnastika Federasiyası və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə Naxçıvanda Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan bədii gimnastika üzrə “Grace of Nature” beynəlxalq turnirinə yekun vurulub.



İki gün davam edən turnirdə Qazaxıstan və Azərbaycan komandalarının, ümumilikdə, 250-yə yaxın idmançısı mübarizə aparıb. Turnirdə 20 klubun üzvləri 4 yaş kateqoriyasında (2016-2017-ci il, 2013-2015-ci il, 2011-2012-ci il və 2008-2010-cu il) öz məharətlərini nümayiş etdiriblər.

Turnirin sonunda qaliblər mükafatlandırılıb.

***Azərbaycan Gimnastika Federasiyasının baş katibi Nurlana Məmmədzadə*** turnir ilə bağlı təəssüratlarını bizimlə bölüşdü: “Naxçıvanda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş bədii gimnastika üzrə “Grace of Nature” beynəlxalq turnirinə start verilib. Bu, AGF tərəfindən bölgədə təşkil olunan ilk beynəlxalq turnirdir. Yarışın adı – “Grace of Nature” (“Təbiətin lütfü”) bölgələrimizin özünəməxsus təbiətinin gözəlliyini ifadə edir. Bu yarışın hər il bir bölgədə keçirilməsi planlaşdırılır. Hazırda Azərbaycanın 30 rayonunda bədii gimnastika bölmələri fəaliyyət göstərir. Yarışda paytaxtla yanaşı, respublikanın rayonlarından olan gənc gimnastlar da iştirak edirlər. Qeyd edim ki, regionlardakı yeniyetmə və gənc gimnastlar mütəmadi olaraq öz məşqçiləri ilə birlikdə Bakıya gəlir və Milli Gimnastika Arenasında təlim-məşq toplanışı keçirlər. Beynəlxalq səviyyəli yarışların bölgələrdə keçirilməsi çox vacibdir, çünki turnir gənc idmançıları daha da ruhlandırır. Ümidvaram ki, bir müddət sonra biz bu yarışın iştirakçılarını beynəlxalq arenalarda görəcək və region təmsilçilərinin yeni idman nailiyyətlərinə şahidlik edəcəyik”.



**✍ Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Babək rayonunun Payız kəndində yaşamış Məhərrəmov Qaybalı Hüseynqulu oğlunun adına olan JN-058$^{A}$ inventar nömrəli, 10305028 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayon Havuş bələdiyyəsinə məxsus möhür itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Düdəngə kəndində yaşamış Sadıqov Abbas Məmmədhüseyn oğlunun adına olan JN-563$^{A}$ inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Düdəngə kənd sakini İbrahimov Mənsur Əhməd oğlunun adına olan JN-1478 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
www.serqqapisi.gov.az
Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 574